BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ VƏ MULTİKULTURALİZM MƏRKƏZİ

TƏHLİL

# Ermənistan hərbi potensialını gücləndirməyə davam edir

Fuad Abdullayev

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

SENTYABR 2026

# Ermənistan hərbi potensialını gücləndirməyə davam edir

## Giriş

Dəyişən geosiyasi şərait fonunda Ermənistan hakimiyyətinin silahlı qüvvələrin modernləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirdiyi müşahidə olunur. Bu məqsədlə paralel olaraq müdafiə xərclərinin əhəmiyyətli dərəcədə artırılması istiqamətində addımlar atılır. Qeyd edək ki, bu prosesin əsas dayaqlarından birini Hindistanla inkişaf etdirilən hərbi əməkdaşlıq təşkil edir.

## Ermənistanın hərbi potensialının inkişafı

Ermənistan silahlanma siyasətini davam etdirərək Hindistan, Fransa, Çin, İran və ABŞ-la tərəfdaşlıq əlaqələrini inkişaf etdirir. Bu proseslə bağlı fikirlərini bölüşən "ARPI Armenia"nın hərbi eksperti Leonid Nersisyan mövcud vəziyyətə dair diqqətçəkən açıqlamalar verib.[1] O, 2020-2026-cı illərdə Ermənistan silahlı qüvvələrinin silahlanma prosesini bir neçə sahə üzrə təhlil edərək, Azərbaycanla müqayisədə mövcud vəziyyəti izah edib. Onun qənaətinə görə, intensiv silah tədarükü nəticəsində Ermənistan hazırda artilleriya sistemləri ilə təminat baxımından 2020-ci il müharibəsindən əvvəlki dövrlə müqayisədə daha əlverişli vəziyyətdədir. Nersisyanın fikrincə, artilleriya sistemləri sahəsində həm kəmiyyət, həm də keyfiyyət baxımından ciddi dəyişikliklər baş verib.

Ekspert hava hücumundan müdafiə (HHM) sahəsində də müəyyən irəliləyişin müşahidə olunduğunu bildirib. Bununla belə, o, qısa mənzilli HHM sistemləri və PUA-lara qarşı mübarizə vasitələri ilə bağlı məlumatların məhdud olduğunu qeyd edərək, əlavə edib ki, Hindistandan alınmış "Akash" HHM sistemlərinin raketlərinin nisbətən yüksək qiymətə malik olması PUA-larla mübarizədə müəyyən çətinliklər yarada bilər. Bu baxımdan, həmin istiqamətdə əlavə tədbirlərin görülməsinə ehtiyac var.

L.Nersisyanın qiymətləndirməsinə görə, PUA sahəsində Azərbaycanla Ermənistan arasında mövcud fərq əhəmiyyətli dərəcədə azaldılıb. Artilleriya sahəsində tərəflər arasındakı fərq hazırda nisbətən məhduddur. Lakin, aviasiya, o cümlədən taktiki və əməliyyat raket sistemləri sahəsində ciddi fərq qalmaqdadır və Ermənistan bu sahələrdə Azərbaycanla müqayisədə əhəmiyyətli dərəcədə geridədir. O, kəmiyyət baxımından fərqin yaxın perspektivdə tam aradan qaldırılmasının çətin olacağını hesab edib. Buna görə də, Ermənistanın uzunmüddətli perspektivdə qoşunların keyfiyyət göstəricilərinin maksimum artırılmasına və etibarlı ehtiyat qüvvənin

[1] https://www.youtube.com/watch?v=qz0_ETdgM-M

formalaşdırılmasına diqqət yetirməlidir. Onun fikrincə bu yanaşma potensial hərbi paritetə nail olmaq üçün əsas şərtlərdən biri kimi qiymətləndirilir.

Hindistanla əməkdaşlığa gəldikdə isə Nersisyan bildirib ki, Ermənistan bu ölkənin istehsal etdiyi silah sistemlərinin böyük hissəsini artıq əldə edib. Bu baxımdan gələcək əməkdaşlığın əsas istiqaməti daha çox modernləşdirmə proqramlarının olacağı gözlənilir. Buraya 120 kilometrədək mənzili olan "Pinaka" reaktiv yaylım atəş sistemi üçün yeni raketlərin sınaqları da daxildir. Eyni zamanda, əldə edilmiş silah sistemlərinə texniki xidmətin göstərilməsi və Ermənistanda komponentlərin yerli istehsalı üzrə birgə müəssisələrin yaradılması gündəmdədir.

Ekspert İran ərazisindən hərbi və mülki yüklərin daşınması məsələsinə də diqqət çəkib.[2] O, qeyd edib ki, hazırda bu marşrut sabit şəkildə fəaliyyət göstərdir. Lakin regionda yeni genişmiqyaslı müharibənin başlanması halında bu logistika xətti ciddi risklərlə üzləşə bilər. Ermənistanın isə bu risklərə təsir imkanları olduqca məhduddur. Bu amil Ermənistanın hərbi-texniki əməkdaşlıq və silah tədarükü siyasətində logistika məsələsinin xüsusi əhəmiyyət daşıdığını göstərir.

**Ermənistan hakimiyyətinin silahlanma siyasəti**

Ermənistan hakimiyyəti silahlı qüvvələrin modernləşdirilməsi prosesinin təmin edilməsi məqsədilə 2027-2029-cu illər arasında müdafiə xərclərini artırmağı planlaşdırıb. Belə ki, hökumətin 2 iyul 2026-cı ildə 985-N nömrəli qərarı ilə "2027-2029-cu illər üzrə Ortamüddətli Dövlət Xərcləri Proqramı" təsdiqlənib.[3] Proqrama əsasən, Ermənistan yalnız müdafiə xərcləri 2027-ci ildə 1,635 milyard ABŞ dolları təşkil edəcək. 2028-ci ildə bu xərclərin 1,733 milyard dollara, 2029-cu ildə isə 1,749 milyard dollara çatacağı nəzərdə tutulub. Büdcənin strukturunda kapital xərclərinin yüksək paya malik olması xüsusi diqqət çəkir. İstisna edilmir ki, bu vəsaitlər əsasən hərbi texnikanın alınmasına və infrastrukturun inkişafına yönəldiləcək. Belə ki, müdafiə xərclərinin kapital hissəsinin 2027-ci ildə 908,8 milyon dollar təşkil edəcəyi nəzərdə tutulub. 2028 və 2029-cu illərdə isə bu göstəricinin hər il 969,7 milyon dollar səviyyəsində olacağı qeyd edilib. Mövcud məumatlar fonunda ehtimal etmək olar ki, gələcək üç il ərzində Ermənistan yeni silah sistemlərinin əldə edilməsi və hərbi infrastrukturun inkişafına üstünlük verməyə davam edəcək.

Eyni zamanda, qeyd etmək lazımdır ki, Ermənistan hakimiyyətinin müdafiə və təhlükəsizlik sahəsinə ayırdığı resursların artırılması silahlı qüvvələrin modernləşdirilməsinin epizodik deyil, uzunmüddətli dövlət siyasətinin tərkib hissəsi olduğunu göstərir. Belə ki, sözügedən Proqramda müdafiə, ictimai asayiş,

[2] https://www.youtube.com/watch?v=c0CRb8fhVGA
[3] https://www.arlis.am/hy/acts/227448/latest

təhlükəsizlik və məhkəmə üzrə dövlət xərclərinin ÜDM-yə nisbətinin 2027-ci ildə 6,3 faiz, 2028-ci ildə 6,1 faiz, 2029-cu ildə isə 5,6 faiz təşkil edəcəyi qeyd olunub. Hərçənd sözügedən göstəricinin hər il azalacağı proqnozlaşdırılır, lakin bunun üçillik dövr ərzində orta hesabla təxminən 6 faiz səviyyəsində qalması Ermənistanın iqtisadi resurslarının əhəmiyyətli hissəsinin müdafiə və təhlükəsizlik sektoruna yönəldilməsinin prioritet olaraq qalacağını göstərir. Eyni zamanda, sözügedən xərclərin ümumi Ermənistanın dövlət xərclərindəki payı 2027-ci ildə 21,7 faiz, 2028-ci ildə 21,2 faiz və 2029-cu ildə 20,1 faiz təşkil edəcək. Ümumilikdə, qeyd olunan göstəricilər Ermənistanın müdafiə xərclərini yüksək səviyyədə saxlamaqla modernləşmə prosesini orta və uzunmüddətli perspektivdə davam etdirmək üçün maliyyə bazası yaratmağa çalışdığını deməyə əsas verir. Müqayisə üçün qeyd edək ki, "Global Military Forces Database and Intelligence Platform" və digər bəzi mötəbər məlumat mənbələrinə görə, 2026-cı il üçün müdafiə və təhlükəsizlik xərclərinin ÜDM-yə nisbətinin 6 faizdən çox olan ölkələr arasında Ukrayna, İran, Rusiya və İsrail kimi ölkələr var.[4]

Bunu da əlavə etmək lazımdır ki, Ermənistan hökumətinin "Ermənistan Respublikasının 2026-2031-ci illər üçün İnkişaf Proqramı"nın müdaifə və təhlükəsizliklə bağlı hissəsində də silahlı qüvvələrin silahlanması, qoşunlarda şəxsi heyətin artırılması, yerli istehsal və digər məsələlərə yer verilib.[5] Bu sahədə aşağıda qeyd edilən işlərin görülməsi nəzərdə tutulub:

- peşəkar orduya keçid prosesini davam etdirmək;
- silahlı qüvvələrin potensialını inkişaf etdirmək, ordunun silah və hərbi texnika, maddi-texniki və digər zəruri resurslarla təminatını gücləndirmək;
- qoşunlarda şəxsi heyəti artırmaq, daimi döyüş hazırlığını təmin etmək, eləcə də əməliyyat, peşəkar və strateji ehtiyat yaratmaq məqsədilə yeni sistem tətbiq etmək;
- silahlı qüvvələrin ehtiyaclarına uyğun olaraq yerli istehsalçılardan satınalma sistemini təkmilləşdirmək, silah-sursat və hərbi texnikanın istehsalını xarici tərəfdaşlarla əməkdaşlıq çərçivəsində lokallaşdırmaq. Eyni zamanda, silahlı qüvvələrin silahlanmasında olan hərbi texnikanın saxlanılması, təmiri və modernləşdirilməsi üçün müvafiq imkanlar yaratmaq.

Qeyd edək ki, N.Paşinyanın avqustun 24-də beş illik hökumət proqramının parlamentdə təqdimatı zamanı da Ermənistanın hərbi potensialının artırmağa davam

[4] https://www.globalmilitary.net/rankings/countries/defense-budget-gdp/
https://www.defensebudget.org/ru/rankings/2026

[5] https://www.e-gov.am/sessions/

edəcəyini bildirib. O, qeyd edib ki, beş illik dövrdə hökumət hərbi-sənaye kompleksinin inkişafını təşviq etməyə davam edəcək.[6] Müdafiə naziri Suren Papikyan isə avqustun 25-də jurnalistlərin "Ermənistan Azərbaycanla sülh müqaviləsi imzaladıqdan sonra silah alacaqmı?" sualına cavab olaraq bildirib ki, Ermənistan ordusu özünü silahlandırmağa və modernləşdirməyə davam edəcək.[7]

**Hindistanla müdafiə əməkdaşlığının strateji dərinləşməsi**

Ermənistanın müdafiə sektoruna yönəltdiyi maliyyə vəsaitlərinin əhəmiyyətli hissəsinin icrasının Hindistanla hərbi və hərbi-texniki əməkdaşlığın genişləndirilməsi ilə birbaşa əlaqəli olması istisna edilmir. Belə ki, hazırda Hindistan Ermənistanın əsas müdafiə məhsulları təchizatçılarından biri kimi çıxış edir və iki ölkə arasında imzalanmış müqavilələrin ümumi dəyərinin 2 milyard dollara yaxın, bəzi mənbələrə görə bundan da çox olduğu bildirilir.

Digər tərəfdən, Hindistan rəhbərliyinin də ikitərəfli hərbi və hərbi-texniki əməkdaşlığın dərinləşdirilməsinə siyasi dəstək verdiyi müşahidə olunur. Hindistanın Baş naziri N.Modinin Bişkekdə ŞƏT sammiti çərçivəsində Ermənistanın Baş naziri N.Paşinyanla görüşündən sonra "X" sosial şəbəkəsində erməni dilində paylaşım edərək müdafiə, kosmos və İT sahələrində əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini ifadə etməsi bunun ən bariz nümunəsi hesab etmək olar.[8]

Bu kontekstdə, iki ölkə arasında əməkdaşlığın son dövrdə daha da intensivləşdiyini göstərən əsas hadisələrdən biri Hindistan nümayəndə heyətinin 16 avqust İrəvana rəsmi səfəri olub.[9] Qeyd edək ki, səfər çərçivəsində avqustun 17-də Hindistanın müdafiə naziri Rajes Kumar Sinqh müdafiə naziri Suren Papikyanla görüş keçirib. Tərəflər hərbi-texniki əməkdaşlığın genişləndirilməsi, regional təhlükəsizlik və 2026-cı ilədək nəzərdə tutulmuş müdafiə əməkdaşlığı proqramının praktiki icrasını müzakirə ediblər. Qeyd edək ki, 2025-ci ilin sonunda imzalanmış bu proqram hərbi təhsil, birgə təlimlər və təcrübə mübadiləsini əhatə edir.[10] Davamında Hindistanın nümayəndə heyətini Ermənistanın yüksək texnologiyalar sənayesi naziri David Tadevosyan qəbul edib. Görüşün nəticəsi olaraq müdafiə sənayesində tədqiqat, innovasiya və birgə istehsal sahəsində əməkdaşlığa dair "Memorandum imzalanıb. Sənədin əsas komponenti hərbi istehsalının Ermənistanda lokallaşdırılması olub. Habelə, yeni nəsil hərbi sistemlərin inkişafı və texnoloji inkubatorların yaradılması

[6] https://t.me/bagramyan26/101434
[7] https://youtu.be/trVdVlUgMOc?t=319
[8] https://newsarmenia.am/news/armenia/oborona-kosmos-i-it-modi-napisal-na-armyanskom-o-razvitii-sotrudnichestva-indii-i-armenii/
[9] https://www.pib.gov.in/PressReleaseDetail.aspx?PRID=2301452&reg=48&lang=2
[10] https://civilnet.am/hy/news/1013619

nəzərdə tutulub.[11] Avqustun 18-də Hindistanın müdafiə naziri Ermənistanın müdafiə nazirinin müavini Karen Brutyan[12] və müdafiə nazirinin birinci müavini, Baş Qərargah rəisi general-leytenant Edvard Asryanla[13] da görüşüb. E.Asryanla görüş zamanı tərəflər iki ölkənin silahlı qüvvələrinin baş qərargahları arasında yeni institusional əməkdaşlıq formatını müəyyən edən sənəd mübadiləsi aparıblar. Sinqhin səfər proqramına Ermənistan xarici işlər nazirinin müavini vəzifəsini icra edən Mnatsakan Səfəryanla görüş də daxil olub. Bu görüşlərdə Hindistan və Ermənistan arasında daim güclənən müdafiə tərəfdaşlığı müzakirə edilib. Hər iki tərəf ikitərəfli müdafiə tərəfdaşlığını daha da inkişaf etdirmək üçün qətiyyətli öhdəliklərini bir daha təsdiqləyib.[14] Hindistan nümayəndə heyəti ən son olaraq V.Sarqsyan adına Hərbi Akademiyanı ziyarət edib. R.Sinqh Hindistanın dəstəyi ilə yaradılmış İT laboratoriyası ilə tanış olub və akademiyanın müəllim heyəti ilə görüşüb.[15] Bu səfərin nəticələrini şərh edən "Usanas Foundation" analitik mərkəzinin təsisçisi və baş direktoru Abhinav Pandyanın fikrincə[16] imzalanmış memorandum Ermənistan-Hindistan münasibətlərini "alıcı-satıcı" modelindən hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə keçirib. O, iki ölkə arasınndakı əməkdaşlığın gələcəkdə kəşfiyyat məlumatlarının mübadiləsini və birgə hərbi əməliyyatları da əhatə edə biləcəyini vurğulayıb.

Ümumiyyətlə əməkdaşlığın digər səviyyələrdə də davam etdirilməsi onun çoxşaxəli xarakter aldığını göstərir. Belə ki, avqustun 31-də Hindistan Milli Müdafiə Kollecinin komendantı, aviasiya marşalı Maniş Kumar Quptanın rəhbərlik etdiyi nümayəndə heyəti Ermənistana səfər edib. Səfər çərçivəsində nümayəndə heyətini, Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Edvard Asryan qəbul edib. Görüş zamanı Ermənistan tərəfi orduda həyata keçirilən genişmiqyaslı islahatların gedişi barədə Hindistan nümayəndələrinə məlumat verib.[17]

2026-cı ildə iki ölkənin müdafiə nümayəndəliklərinin digər görüşləri və əldə edilən razılaşmaları da olub. Məsələn 2026-cı ilin may ayında Ermənistanın Silahlı Qüvvələrinin Artilleriya və Raket Qoşunları İdarəsi rəisinin müavini polkovnik Aram Xaçaturyanın rəhbərlik etdiyi nümayəndə heyəti Hindistanın Devlali şəhərində

11 https://hightech.gov.am/articles/news/india
12 https://radar.am/hy/news/politics-2774121913/
13 https://www.armtimes.com/hy/article/341995
14 https://factor.am/1052796.html
15 https://timesofindia.indiatimes.com/defence/news/india-armenia-to-boost-defence-and-military-technical-coop-join-hands-for-research-innovation/articleshow/133358585.cms
16 https://www.etvbharat.com/hi/opinion/beyond-arms-sales-india-armenia-deepen-defence-relationship-with-new-military-cooperation-framework-hin26081803533
17 https://www.1lurer.am/hy/2026/09/01/1/1569456

yerləşən Artilleriya Məktəbində olub. Nümayəndə heyətinə artilleriya sistemləri təqdim edilib və onlar texniki xidmətin təşkili metodları ilə tanış olublar.[18]

Hərbi-texniki əməkdaşlıq sahəsində də bir sıra proseslərin getdiyi müşahidə olunub. Belə ki, Ermənistanda 155mm-lik döyüş sursatlarının yerli istehsalı artıq təşkil olunub. Yerli surstlar iyun ayında İrəvanda baş tutan sərgidə Paşinyana təqdim edilib.[19] İstisna edilmir ki, bu istehsalın yaradılmasında Hindistanın dəstəyi olub. Belə ki, bir müddət əvvəl Hindistan mədiasında, Hindistanla əməkdaşlıq çərçivəsində 155mm-lik döyüş sursatlarının Ermənistanda istehsalının təşkili ilə bağlı xəbərlər paylaşılmışdı. Qeyd edək ki, eyni mənbənin məlumatına görə Hindistan Ermənistanda "Pinaka" sistemlərinin raketlərinin yerli istehsalının təşkili ilə bağlı da danışıqlar aparılır.[20] Habelə, son vaxtlar Ermənistana 290 km-dək uçuş məsafəsinə malik "Pralay" ballistik raketlərinin ixrac versiyasının tədarükü və yeni nəsil "Akash-NG" zenit-raket komplekslərinin alınması məsələlərinin nəzərdən keçirildiyi məlumatları yayılıb.[21] Paralel olaraq, Ermənistanın Su-30SM qırıcılarının modernləşdirilməsi layihəsi üzərində də iş aparıldığı qeyd edilib. Layihə çərçivəsində təyyarələrin "Uttam" radarı və yeni "Astra Mk1A" "hava-hava" raketləri ilə inteqrasiyasının nəzərdə tutulduğu iddia olunub.[22] Bu raketlərin uçuş məsafəsinin 160 km-dək artırıldığı bildirilib. Həmin sistemlərin inteqrasiyasının Ermənistanın aviasiyasının "JF-17 Block III" döyüş təyyarələrinə qarşı üstünlük əldə etməsinə imkan verəcəyi vurğulanıb.[23] Son olaraq isə Ermənistanın 120 km-dək mənzili olan yeni idarəolunan "Pinaka" raketlərinin ilk beynəlxalq sifarişçisi olacağı gözlənildiyi qeyd edilib.[24] Qeyd edək ki, bu raketlərin seriya istehsalına 2027-ci ilin ortalarında başlanması planlaşdırılır.

## Nəticə

Yekun olaraq, belə qənaətə gəlmək olar ki, Ermənistan hakimiyyəti üçün müdafiə sektorunun müxtəlif istiqamətləri üzrə potensialının artırılması məsələsi aktual olaraq qalır. Xüsusilə də, Ermənistanın aviasiya və raket sistemləri sahəsində mövcud çatışmazlıqların aradan qaldırılması qarşıdakı dövrdə ölknin əsas prioritetlərindən birinə çevrilə bilər. Buna nail olmaq üçün Ermənistanın hərbi və hərbi-texniki

---

[18] https://idrw.org/armenia-sends-artillery-experts-to-india-amid-growing-defence-cooperation-against-regional-threats/
[19] https://www.facebook.com/watch/?v=1549222520165414
[20] https://idrw.org/armenia-eyes-local-production-of-indias-guided-pinaka-rockets-as-precision-strike-capability-reaches-himars-level/
[21] https://idrw.org/india-and-armenia-advance-pralay-missile-talks-as-new-delhi-eyes-major-defence-export/
[22] https://idrw.org/the-caucasus-pivot-armenia-eyes-akash-ng-pralay-missiles-and-su-30-upgrades-in-next-phase-of-indian-arms-procurement/
[23] https://idrw.org/india-armenia-explore-astra-mk1a-integration-for-su-30sm-as-yerevan-eyes-bvr-edge-over-pl-15-equipped-rivals/
[24] https://idrw.org/exclusive-armenia-eyes-indias-new-120-km-guided-pinaka-rocket-could-become-launch-customer/

əməkdaşlıq tərəfdaşlarını daha da şaxələndirməsi, eyni zamanda müdafiə sənayesinin istehsal və texnoloji imkanlarını genişləndirməyə çalışması gözlənilir.

Bu prosesdə Hindistanın xüsusi rol oynayacağı ehtimalı yüksək qiymətləndirilir. Belə ki, iki ölkə arasında əməkdaşlıq artıq yalnız hazır silah və hərbi texnikanın tədarükü ilə məhdudlaşmır, eyni zamanda birgə istehsal, texnologiyaların lokallaşdırılması, hərbi təhsil və kadr hazırlığı, eləcə də müdafiə sənayesi sahəsində institusional əlaqələrin inkişafını əhatə edən daha geniş müstəviyə keçir.

Nəticə etibarilə, Ermənistanın keçmişdə həyata keçirdiyi işğalçılıq siyasəti nəzərə alındıqda, ölkənin hərbi potensialının artırılması istiqamətində atdığı addımlar Cənubi Qafqazda təhlükəsizlik mühiti üçün potensial risk amili kimi qiymətləndirilir.

**Müəllif: Fuad Abdullayev, Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin aparıcı məsləhətçisi**